**ƏLİSƏFDƏR HÜSEYNOV**

# MƏLƏKLƏRLƏ RƏQS

**(Sənədli fraqmentlərdən ibarət mistik sonluqlu povest)**

qanun nəşriyyatı

“Mələklərlə rəqs” dünya şöhrətli maestro Niyazinin həyat və yaradıcılğının müxtəlif məqamlarına işıq salan real faktlar əsasında qələmə alınmışdır. Müəllif adi məişət detallarından tutmuş möhtəşəm konsert salonlarında baş verən hadisələrə qədər müxtəlif olaylar fonunda Niyazi fenomeninin xarakterik cizgilərini ön plana çıkərək Ustadın hərtətəfli bədii obrazını yaratmağa nail olmuşdur.

# Mündəricat

ƏBƏDİ MÖVZUMDA YENİ GƏZİŞMƏLƏRİM,
YAXUD ÖN SÖZ ƏVƏZİ ..............................................6
1. "SİL GÖZÜN YAŞIN, QARAGİLƏ..." .................... 10
2. "MƏN GƏLMİŞƏM SİZƏ QONAQ" ...................... 17
3. "BİZƏ BİŞİR BİR QAYĞANAQ" ........................... 26
4. "BRAVO, MAESTRO!" ........................................... 34
5. MƏLƏKLƏRLƏ RƏQS ........................................... 42
6. ÇAĞIRILMIŞ QONAQLAR… ................................. 52
7. NƏNƏM, NİYAZİ, MƏN VƏ
GÖNDƏRİLMƏYƏN MƏKTUB ................................ 62
8. "RAST"A DOĞRU… ................................................ 71
9. MÖHTƏŞƏM DUET ................................................ 82
10. MELOMAN ............................................................ 93
11. HAYDI, İŞ BAŞINA ............................................ 104
12. "GƏL, GÖR MƏNİ EŞQ NEYLƏDİ" ................ 112
13. İŞ Kİ BELƏ DÜŞDÜ ........................................... 128
14. QOCA DİRİJORUN SONUNCU KONSERTİ ... 138

# ƏBƏDİ MÖVZUMDA YENİ GƏZİŞMƏLƏRİM, YAXUD ÖN SÖZ ƏVƏZİ

*Maestro Niyazinin yaradıcılığına hədsiz marağım və bir yazı-pozu adamı kimi onu özüm üçün əbədi mövzu elan etməyim bəzi adamların, yumşaq desək, bir az təəccübünə səbəb olub: "Orkestrin qarşısında dayanıb əl-qol atmaq, ifaçılara əl işarələri ilə göstərişlər vermək (?) nə çətin, qeyri-adi bacarıq olub ki, ona bu qədər diqqət ayırasan? Burada diqqət yetirilməli nə var axı? Lap nənəmin də əlinə dirijor çubuğu verib orkestrin qarşısına çıxarsan, xoş-naxoş dirijorluq edəcək də".*

*Dirijorluq sənətinin belə bəsit, primitiv şəkildə anlaşılması, düzü, mənim ürəyimi ağrıdır. Görünür, orta məktəblərdə "Musiqi" fənnini tədris edən müəllimlər də elə bu cür düşünüblər ki, indi yetkinlik yaşına çatmış adamlar simfonik əsərlərin ifası zamanı özünə əl qatıb qan-tər içində, ciddi-cəhdlə biz dinləyicilərə nəyi isə çatdırmaq istəyən dirijoru nənələri ilə eyniləşdirirlər. Neyləyəsən, reallıq budur. Ona görə də bəri başdan bu sənətin çətinliyini və gözəlliyini anlayan dostlardan xahiş edirəm ki, indi yazacağımın onlara ünvanlanmadığını nəzərə alsınlar. O ki qaldı yerdə qalanlara, heç onları da*

*qınamağa obyektiv əsas yoxdur. Dirijorluq sənəti elə sənət deyil ki, cikinə-bikinə əlüstü vaqif olub mahiyyətini bircə anın içindəcə dərk edəsən.*

*İndi keçək əsas mətləbə.*

*Simfonik musiqi – polifonizm, yəni çoxsəslilik prinsipi ilə yazılan, eyni zamanda paralel şəkildə səslənərək dinləyicilərin hiss və duyğularının ən dərin və mübhəm qatlarına qədər gedib çıxan səslərdən qurulmuş mətndir. Mən ona görə əsər yox, mətn deyirəm ki, bu ifadə "musiqi əsəri" anlayışını daha güzgün qavramağa kömək edir. Diqqət yetirin, bəstəkar beynində doğulmuş musiqi obrazlarını ilk növbədə kağız üzərində not işarələri ilə şifrələyir və bununla da öz işini başa çatdırır. Əsər hələ ki bir əsər kimi bəstəkarın beynində, ürəyində çalınır. Oradan çıxıb hamının malına çevrilmək üçünsə o, mütləq ifa olunmalı, zaman axarında yaşamalıdır. Əks təqdirdə, ən dahiyanə musiqi kompozisiyasının not yazıları 100 illərlə ölü can kimi qala bilər. İfa olunmaq isə interpretasiya olunmaq, yəni konkretləşmək, cana gəlmək, real şəkildə hiss və duyğulara təsir etmək gücü qazanmaqdır. Bu mürəkkəb, çətin funksiyanı isə məhz dirijor yerinə yetirir. O, bəstəkarın not mətnini dirildib canlı orqanizmə çevirir. Orkestrdəki alətlərin təyinatının müxtəlifliyini, ifaçıların sayını və s. amilləri nəzərə alıb dirijorun çiyinlərinə düşən yükün ağırlığını təsəvvür edin, dostlar.*

*Amma dirijorluq bununla da bitmir axı. Ardınca daha çətin, öhdəsindən gəlmək hər dirijora nəsib olmayan növbəti mərhələ gəlir.*

*İş orasındadır ki, musiqi – məkani sənət deyil. Əsərin hansısa məkanda səslənməsi sizi çaşdırmasın – məkanilik bu anlamı bildirmir. Məkan xarakterində olmaq – gözə görünmək, maddi şəkildə zühur etməkdir. Musiqinin dili isə mücərrəddir, biz onu aparıb hansısa real bir nəsnəyə bağlaya bilmirik. Amma əsərin qavranılması üçün bu, çox vacib amildir.*

*Dirijor yaradıcılığının 2-ci mərhələsi də musiqini məhz məkan biçiminə salmaq cəhdidir ki, maestro Niyazi dünya dirijorları içərisində bunu ən yaxşı bacaranlardan biri idi. Mən elə buna görə yazmışdım və bir də təkrar edirəm:*

*Niyazilik – gözəllikdir, estetik həzdir, görünən musiqidir...*

*Niyazi – xalqımızın fəxridir, qürur mənbələrindən biri, musiqiyə məkan xarakteri verən, onu məkan biçiminə salan (!!) sehrbazdır...*

*Niyazi – musiqi ilə bağlı hər şeydir – mələklərlə bəhsə girən, musiqinin içində üzən rəqqasdır, musiqinin obrazını yaradan aktyordur, barmaqları ilə musiqidən heykəllər yonan heykəltəraş, səsin boyalarını sərgiləyən rəssamdır…*

*Niyazilik – gözəllikdir, estetik həzdir, görünən musiqidir...*

## *2*

*Dirijor pultu arxasına keçəndə musiqi qeyd-şərtsiz Niyaziyə, Niyazi isə musiqiyə təslim olurdu. Bu hal əslində əsl məhəbbətin yeganə formuludur və bu məqamı sözlə izah etmək çətindir. Niyazi musiqinin içində üzürdü, musiqi isə Niyazinin barmaqlarında, üzünün cizgilərində yaşayır, gülür, nəfəs alırdı.*

*Niyazi musiqinin obrazını yaradırdı, musiqi də Niyazinin.*

*Niyazi səslərin dilini bilirdi, onlarla dialoqa girirdi, onları idarə edirdi – sığallayırdı, yeri gələndə onlara barmaq silkələyib hədələyirdi, üstünə "acıqlanırdı", məclisdən "qovurdu".*

*Niyazi dünya musiqisi tarixində heç bir dirijorun etmədiyi, bəlkə də, etməyə qüdrəti çatmadığı bir jestin müəllifi idi. O səsləri əllərinə "götürüb" yuxarı – səmaya, kosmosa göndərən yeganə dirijor kimi adını dünya dirijorluğu tarixinə qızıl hərflərlə həkk etdi...*

*Ustad, illər ötəcək, neçə-neçə xatirələr solacaq, neçə-neçə melodiyalar, mahnılar heç əvvəldən yox imiş kimi unudulacaq, neçə-neçə titullu, ordenli adlar yaddaşlardan birdəfəlik silinəcək, amma Sən və sənin yaratdığın bu şedevrlər həmişə yaşayacaq, həmişə insanları saflığa, təmənnasız sevgiyə, insanlığa səsləyəcək...*

*Sağ ol ki var idin, yaddaşlarda, ürəklərdə yenə də varsan və həmişə də olacaqsan!*

# 1. “SİL GÖZÜN YAŞIN, QARAGİLƏ...”

...Hava o qədər bürkü idi ki, avtobusun nəfəslikləri açıq da olsa, içəri sərinləmək bilmirdi...

Maestro gözucu salona nəzər saldı: orkestrin demək olar ki, bütün üzvləri başını söykənəcəklərə “yapışdırıb” mürgüləyirdi.

Əslinə qalsa, onun özü də yorulmuşdu – Tbilisi festivalında üç gün ərzində etdikləri çıxışlardan, bu çıxışlardan əvvəlki gərgin məşqlərdən sonra elə burada – Bakıya şütüyən avtobusun salonunda bir az dincəlmək pis olmazdı, amma nəyə görəsə narahat idi, ağır nəfəs alırdı – elə bil, hava gedib ciyərlərinə çatmırdı.

“Ciyərlərinə?” – bu sualı özü-özünə verib acı-acı güldü. Axı onun bir ciyəri vardı, o birini hələ neçə il əvvəl sağalmaz xəstəliyə tutulanda kəsib götürmüşdülər.

Gözlərini yumub gənclik illərində sevimli Həcərlə yaşadıqları nəm, rütubətli mənzilləri, toya da, vaya da geyindiyi yeganə kostyumu, vərəmə tutulduğunun aşkar olduğu o müdhiş anları, ciyərinin bir tayını itirdiyi günün səhərini xatırladı, yenə də gülümsədi, amma bu dəfə acı-acı yox, həmişə sərt sifətində hərdən sayrışan o sirli uşaq təbəssümü ilə.

Gözlərini açıb pəncərədən çölə baxdı – hər tərəf ucu-bucağı görünməyən pambıq tarlası idi. Kolların